# Məhdud Zəmanət

"Research In Motion Limited" şirkəti (bundan sonra "RIM"), istehsalçı və onun törəmə cəmiyyəti olan 4022422 saylı, Centrum House, 36 Station Road, Egham, Surrey, UK, TW20 9LF ünvanında qeydiyyata alınmış və BləkBeri Əl Cihazı (BləkBeri Enerji Yığma Aparatı ilə birgə BlackBerry Aparatını təşkil edən), BləkBeri Masaüstü Proqram Təminatı və oxşar simsiz məlumat xidməti və sənədlərdən ibarət BləkBeri Həllini təqdim edən "Research In Motion UK Limited" şirkəti vasitəsilə Sizə, yəni istehlakçıya (bundan sonra "Siz") zəmanət verir ki, BləkBeri Aparatı ilkin istehlakçı kimi Sizin tərəfinizdən alındığı tarixdən başlayaraq bir il müddətində istehsal və materialla bağlı olan qüsurlardan azad şəkildə olacaqdır (bundan sonra "Zəmanət Müddəti"). Hazırkı Məhdud Zəmanət ötürülə bilməz. Zəmanət Müddəti ərzində BləkBeri Aparatı və ya onun komponentlərindən biri və ya bir neçəsi hissələrə və ya çəkilən əməyə görə haqq alınmadan RIM-in mülahizəsi ilə təmir edilə və ya dəyişdirilə bilər. **Siz BləkBeri Aparatı ilə bağlı müştəri xidmətlərinin göstərilməsi üçün təlimatlarla tanış olmaq üçün BləkBeri Əl Cihazının İstifadəçi Kitabçasına müraciət edə bilərsiniz.**

Hazırkı Məhdud Zəmanət adi amortizasiyaya və ya BləkBeri Aparatının hər hansı komponentinin RIM tərəfindən icazə verilməyən şəxs tərəfindən açıldığı və təmir olunduğu hallara şamil edilmir, və BləkBeri Aparatının səhv istifadə edilmənin, rütubətin və ya mayenin, istiliyə yaxınlaşdırılmanın və ya istilikdə üz-üzə qoymağın, qəzanın, sui istifadə etmənin, səhlənkarlığın, səhv tətbiq edilmənin nəticəsində dəyən zərərlə bağlı təmirini və dəyişdirilməsini, və ya RIM və ya səlahiyyətli xidmət nümayəndəsi olmayan şəxs tərəfindən aparılan təmir və ya dəyişikliklər nəticəsində yaranan qüsurları əhatə etmir. Məhdud Zəmanət, LCD ekranın üzərində çatlar və cızıqlar da daxil olmaqla, BləkBeri Aparatının üzərindəki fiziki xəsarətlərə şamil edilmir. Hazırkı Məhdud Zəmanət Məhdud Zəmanətdə tərifi verildiyi BləkBeri Aparatından başqa digər ləvazimatlara və ya əlavə ləvazimatların əmələ gətirdiyi ziyanlara şamil edilmir. Hazırkı Məhdud Zəmanət BləkBeri Aparatını açıq-aşkar RIM tərəfindən təsdiqlənməyən və ya təmin edilməyən əlavə aksessuarlarla, mallarla, xidmətlərlə, köməkçi və əlavə ləvazimatlarla birlikdə istifadə edilməsindən əmələ gələn nasazlıqlara və ya RIM bu cür nasazlıqların BləkBeri Aparatının özündən irəli gəlmədiyini müəyyən edən hallara şamil edilmir. Əlavə olaraq, əgər nasazlıq istifadəçinin BləkBeri Aparatından, BləkBeri Masaüstü Proqram Təminatı və onlarla bağlı simsiz məlumat xidməti və sənədlərdən (bundan sonra "BləkBeri Həlli") təşkil olunan BləkBeri Həllinin qablarında olan Təhlükəsizlik Təlimatlarına riayət etməməyindən irəli gələrsə, Məhdud Zəmanət əhəmiyyətsiz ola bilər və əgər əhəmiyyətsiz deyildirsə, o tətbiq edilməyəcəkdir. Prezumpsiya odur ki, məlumatın təmin olunması BləkBeri Aparatının istifadəçisinin məsuliyyətidir. BləkBeri Aparatına xidmət edən zaman və ya sinxronlaşdırılmış proqram təminatının istifadə edilməsi zamanı da daxil olmaqla (ancaq bununla məhdudlaşmadan) istənilən vaxt zədələnə və ya itirilə bilən məlumat üçün RIM cavabdeh deyildir. Nə qədər ki, BləkBeri Həllinin bir hissəsi kimi verilən hər hansı simsiz məlumat xidmətləri üçüncü şəxs provayder və ya mobil kommunikasiya operatoru vasitəsi ilə RIM və ya RIM-in satıcısı tərəfindən təqdim olunur, RIM simsiz məlumat xidmətlərinin hər zaman olmasına və hər zaman lazımi qaydada işləməsinə qarantiya və ya zəmanət verə bilməz. Siz mobil kommunikasiya operatoru ilə onun BləkBeri Həlli ilə birlikdə hansı zəmanətlərin və xidmət səviyyələrinin təqdim etməsini müəyyən etməniz üçün əlaqə saxlayın. Bu və digər səbəblərdən fövqəladə hallara və ya həyat üçün təhlükəyə və ya mühüm vəziyyətlərdə tətbiqə aid məlumatların ötürülməsini BləkBeri Həllinə etibar etməməlisiniz və RIM öz adından və onun satıcılarının adında bu cür etibar etmənin və ya simsiz məlumat xidmətinin işləməməyinin və ya, Sizin BləkBeri Həllini istifadə etmək istədiyiniz ərazini xidmətin əhatə etməməsi də daxil olmaqla (ancaq bununla məhdudlaşmadan), Sizin BləkBeri Həllindən istifadə edə bilməməyinizin nəticəsində yaranan hadisələrə və ya ziyanlara görə hər hansı məsuliyyətini inkar edir.

SİZİN YURİSDİKSİYANIZDA TƏTBİQ OLUNAN QANUNVERİCİLİYİN AÇIQ-AŞKAR QADAĞAN EDƏN HALLAR İSTİSNA OLMAQLA, BLƏKBERİ APARATININ VƏ YA ONUN ZƏDƏLƏNMİŞ KOMPONENTİNİN TƏMİRİ VƏ YA DƏYİŞDİRİLMƏSİ SİZƏ BLƏKBERİ HƏLLİNİN SATIN ALIMASI VƏ İSTİFADƏ EDİLMƏSİ İLƏ BAĞLI VERİLƏN MÜLKÜ HÜQUQLARINIZIN MÜSTƏSNA MÜDAFİƏ VASİTƏLƏRİDİR. RIM ÖZ BLƏKBERİ HƏLLİNİN

DİSTRİBUTORLARININ VƏ SATICILARININ ADINDAN VƏ RIM TƏRƏFİNDƏN VƏ YA ONUN İŞTİRAKI İLƏ NƏZARƏT EDİLƏN ŞİRKƏTİN VƏ YA RIM-in TÖRƏMƏ ŞİRKƏTİNİN ADINDAN (BUNDAN SONRA BİRLİKDƏ " RIM ŞİRKƏTLƏR QRUPU", AYRILIQDA İSƏ "RIM QRUPU ŞİRKƏTİ") BUNUNLA MALIN XİDMƏTƏ YARARLIĞI, MALIN XİD MƏTƏ YARARLIQ KEYFİYYƏTİ, GÖZLƏNİLƏN ETİBARLILIĞI, MALIN TƏYİNATA VƏ YA MƏQSƏDƏ UYĞUNLUĞU, MÜLKİYYƏT HÜQUQU, POZULMANIN YOLVERİLMƏZLİYİ VƏ YA DİGƏR ƏSASLA QANUNDAN, ƏNƏNƏDƏN, İŞGÜZAR ADƏTDƏN VƏ TİCARƏT ADƏTLƏRİNDƏN İRƏLİ GƏLƏN ZƏMANƏTLƏR DƏ DAXİL OLMAQLA (ANCAQ BUNUNLA MƏHDUDLAŞMADAN), HƏR HANSI AÇIQ-AŞKAR QEYD OLUNAN VƏ YA EHTİMAL OLUNAN ZƏMANƏTLƏRƏ, ŞƏRTLƏRƏ, BƏYANATLARA, TƏSDİQLƏRƏ VƏ QARANTİYALARA GÖRƏ HƏR HANSI MƏSULİYYƏTİ İNKAR EDİR. HAZIRKI BƏND SİZİN İMPERATİV HÜQUQLARINIZA, SİZİN İSTEHLAKÇI KİMİ BU CÜR İMPERATİV HÜQUQLARINIZ OLDUQCA, TƏSİR ETMƏYƏCƏKDİR.

HEÇ BİR HALDA RIM VƏ YA HƏR HANSI RIM QRUPU ŞİRKƏTİ PROQRAM TƏMİNATININ İSTİFADƏSİNDƏN VƏ YA İSTİFADƏ EDİLƏ BİLMƏMƏYİNDƏN İRƏLİ GƏLƏN HƏR HANSI DOLAYI, XÜSUSİ VƏ YA TƏSADÜFİ İTKİLƏRƏ VƏ ZİYANLARA GÖRƏ, HƏTTA RIM-Ə VƏ/VƏ YA RIM QRUPU ŞİRKƏTİNƏ BU CÜR ZİYANLARIN MÜMKÜNLÜYÜ BARƏDƏ MƏLUMAT VERİLSƏ BELƏ, MƏSULİYYƏT DAŞIMAYACAQDIR (ƏLDƏN ÇIXAN FAYDA, BİZNESİN DAYANDIRILMASI, BİZNES MƏLUMATINI İTİRİLMƏSİ VƏ YA DİGƏR MADDİ İTKİLƏRDƏN İRƏLİ GƏLƏN ZİYANLAR DA DAXİL OLMAQLA, ANCAQ BUNUNLA MƏHDUDLAŞMADAN), BU MƏHDUDİYYƏT ZİYANLARIN DELİKTƏ, MÜQAVİLƏYƏ VƏ YA ZƏMANƏTƏ VƏ YA DİGƏR HÜQUQA VƏ YA İDDİALARA ƏSASƏN TƏLƏB OLUNMASINA, MÜDAFİƏ EDİLMƏSİNƏ VƏ MƏHKƏMƏ İDDİASI VƏ YA TƏLƏBİ VASİTƏSİ İLƏ TƏLƏB EDİLMƏSİNƏ ŞAMİL EDİLMƏSİ ÜÇÜN NƏZƏRDƏ TUTULUR VƏ ONLARDAN ASILI OLMAYARAQ ŞAMİL EDİLİR, YALNIZ ÜZƏRİNDƏ HEÇ BİR MƏHDUDİYYƏT ŞAMİL EDİLMƏYƏN ÖLÜM HADİSƏSİ VƏ ŞƏXSƏ XƏSARƏT HALLARI İSTİSNA OLUNUR; RIM-in, RIM ŞİRKƏTLƏR QRUPUNUN VƏ YA BLƏKBERİ HƏLLİNİN HƏR HANSI SƏLAHİYYƏTLİ DİSTRİBUTORUNUN VƏ YA SATICISININ SİZƏ MÜNASİBƏTDƏ HAZIRKI MÜQAVİLƏDƏN İRƏLİ GƏLƏN İTKİLƏRƏ VƏ YA ZİYANLARA GÖRƏ MƏSULİYYƏTİNİN DƏYƏRİ ÜMUMİLİKDƏ ZƏDƏLƏNMİŞ BLƏKBERİ APARATININ DƏYİŞDİRİLMƏSİNƏ ÇƏKİLƏN XƏRCLƏRDƏN ARTIQ OLA BİLMƏZ. Hazırkı Müqavilədə heç nə RIM-in və ya onun işçilərinin və ya agentlərinin səhlənkarlığının bir başa nəticəsi olan ölüm və ya şəxsə xəsarətə görə məsuliyyəti istisna etməsi və ya hər hansı formada məhdudlaşdırması kimi başa düşülə bilməz.

BLƏKBERİ ŞİRKƏT SERVER PROQRAM TƏMİNATI, MASAÜSTÜ PROQRAM TƏMİNATI, BÜTÜN SƏNƏDLƏR VƏ BLƏKBERİ APARATINA HƏR HANSI DAXİL EDİLMİŞ PROQRAM ÜÇÜN MƏHDUD ZƏMANƏT SİZƏ AYRICA OLARAQ TƏQDİM EDİLƏN PROQRAM TƏMİNATININ LİSENZİYALAŞDIRILMASI MÜQAVİLƏSİNDƏ AYRICA NƏZƏRDƏ TUTULMUŞDUR. AYRICA SİFARİŞ EDİLMİŞ BLƏKBERİ AKSESSUARI ÜÇÜN MƏHDUD ZƏMANƏT DƏ HƏMİN AKSESSUARI MÜŞAYİƏT EDƏN AYRICA MƏHDUD ZƏMANƏTDƏ NƏZƏRDƏ TUTULMUŞDUR.

RIM tərəfindən hər pozuntu nəticəsində əmələ gələn tələb etmə hüququndan imtina bu cür imtinanın davamedici olması və digər pozuntu nəticəsində əmələ gələn tələb etmə hüquqlarından imtina etməsi demək deyildir.

Hüquqların ziddiyyətini tənzimləyən hüquq sahəsi istisna olmaqla, hazırkı Məhdud Zəmanət İngiltərə və Uels qanunvericiliyi əsasında tənzimlənir və təfsir olunur. Hazırkı Məhdud Zəmanətin tərəfləri (bunda sonra birlikdə "Tərəflər", ayrılıqda "Tərəf" adlandırılacaqlar) razılaşırlar ki, Malların Alqı-satqısı üzrə Beynəlxalq Müqavilələr haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyasının bütünlüklə hazırkı Məhdud Zəmanətə tətbiqi bununla istisna olunur. Hazırkı Məhdud Zəmanətdən irəli gələn və onunla bağlı bütün təzadlar və mübahisələr son olaraq beynəlxalq arbitraj tərəfindən həll olunacaqlar. Arbitrin qərarı qətidir və Tərəflər üçün məcburi hüquqi qüvvəyə malikdir (aşkar səhv buraxılan hallar istisna olmaqla). Arbitrin qərarı yazılı tərtib olunmalı və əsaslandırılmalıdır.

Arbitrin qərarında Tərəflərin arbitraj xərclərini arbitrin lazım bildiyi hissələrdə ödənilməsi nəzərdə tutulmalıdır. Arbitraj: (i) İngiltərə, London şəhərində keçiriləcək; (ii) İngilis hüququna uyğun olaraq aparılacaq; (iii) ingilis dilində aparılacaq; (iv) Beynəlxalq Ticarət Palatasının Arbitraj Qaydalarına (bunda sonra "Qaydalar") uyğun olaraq təşkil ediləcək; (v) qeyd olunan Qaydalara uyğun olaraq təyin olunmuş və Tərəflərin arbitri təyin etdiyi vaxtdan otuz (30) gün ərzində razılaşdırdıqlarına uyğun olaraq bir arbitr tərəfin dən baxılacaq; arbitr təyin edə bilmədikdə arbitr hər hansı Tərəfin müraciəti əsasında Britaniya Kompüter Cəmiyyətinin Prezidenti tərəfindən (və ya Prezident tərəfindən onun adından çıxış etməsi üçün lazımi qaydada təyin etdiyi şəxs) təyin olunacaqdır. RIM-in icazəsi olmadan Tərəflər arasında olan və ya Sizdən başqa digər şəxsin iştirakı ilə keçən heç bir mübahisə birləşdirilə və ya bir yerdə baxıla bilməz.

Əgər hazırkı Məhdud Zəmanətin hər hansı müddəası əhəmiyyətsiz və ya etibarsız elan olunarsa, bu əhə miyyətsizlik və etibarsızlıq Məhdud Zəmanəti bütövlükdə əhəmiyyətsiz və ya etibarsız etməyəcəkdir, və (o qarşılığın olmamağına gətirib çıxaran hallar istisna olmaqla) Məhdud Zəmanətin tərkibində həmin əhəmiyyətsiz və ya etibarsız müddəa olmadığı kimi başa düşülür və hər bir Tərəfin hüquq və öhdəlikləri müvafiq olaraq təfsir edilir və icra olunur.

Əgər hazırkı Məhdud Zəmanət ingilis dilindən başqa digər bir dilə tərcümə edilərsə, ingilis dilində olan versiya ilə onun tərcüməsinin mənaları arasında ziddiyyət və ya uyğunsuzluq olduğu dərəcədə ingilis dilində olan versiya üstün hüquqi qüvvətə malik olacaqdır.

Əgər hazırkı Məhdud Zəmanətlə BləkBeri Aparatının qabında olan məhdud zəmanət arasında ziddiyyət varsa, hazırkı Məhdud Zəmanətin müddəaları həmin ziddiyyətlərin olduğu həcmdə tətbiq ediləcəkdir.

© 2008 Research In Motion Limited. Bütün hüquqlar qorunur. BləkBeri və RIM-ə aid nişanların, təsvirlərin və simvolların qrupu "Research In Motion Limited"-in müstəsna mülkiyyətdirlər. RIM, Research In Motion, "Always On, Always Connected", "envelop in motion" simvolu və BləkBeri loqosu ABŞ Patent və Əmtəə Nişanı İdarəsində qeydiyyata alınıblar və digər ölkələrdə qeydiyyatı gözlənilə və ya onlar qeydə alınmış ola bilər. Bütün digər markalar, malların adları, şirkətin adları, əmtəə nişanları və xidmət nişanları onların müvafiq mülkiyyətçilərinin mülkiyyətidirlər. Əl cihazı və/və ya onunla bağlı proqram təminatı müəllif hüquqlarına, beynəlxalq sazişlərə və, aşağıdakı ABŞ patentlərinin biri və ya bir neçəsi də daxil olmaqla, müxtəlif patentlərə uyğun olaraq qorunur: 6,278,442; 6,271,605; 6,219,694; 6,075,470; 6,073,318; D,445,428; D,433,460; D,416,256. Digər patentlərin dünya üzə digər ölkələrdə qeydiyyatı gözlənilə və ya onlar qeydə alınmış ola bilər. Hazırkı tətbiq olunan patentlərin siyahısı ilə tanış olmaq üçün www.rim.net/patents.shtml ünvanına nəzər yetirməniz xahiş olunur.